**UOT 811.1/8**

# QAFQAZ DİLLƏRİNDƏ NİTQ HİSSƏLƏRİ VƏ ONLARIN TƏSNİFİ PRİNSİPLƏRİ

**M.M.QULİYEVA**
*AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu*
*tural50@yaho.com*

*Məqalədə Qafqaz dillərinin morfoloji strukturundan və nitq hissələrindən bəhs edilir. Bu dillərdə nitq hissələrinin hansı prinsiplər üzrə bölünməsi onların tipoloji quruluşundan asılıdır. Eyni bir qrupa aid olmasına baxmayaraq, bu dillərin morfoloji quruluşunda və nitq hissələri sistemində bəzi fərqlər var. Ümumiyyətlə, Qafqaz dillərində nitq hissələrinin təsnifində ənənəvi üç prinsipdən (leksik-semantik, morfoloji və sintaktik) istifadə etmək olar. Təbii ki, təsnif zamanı bu və ya digər prinsip daha qabarıq özünü göstərir.*

A**çar sözlər:** dil, nitq hissələri, təsnif, nitq hissələrinin təsnifi problemləri, adlar, fel

Qafqaz dilləri ailəsi Qafqaz arealında məskunlaşmış müxtəlif xalqların milli dilləridir. Bu dillərdən təkcə Qafqaz ərazisində deyil, başqa yerlərdə də istifadə olunur. Bu ərazidə qırxa yaxın dil mövcuddur. Qafqaz dillərinin xüsusiyyətləri çoxdan tədqiqatçıların diqqətini cəlb etmişdir və XIX əsrdən başlayaraq bu dillərin yaxınlığına, genetik əlamətlərinə, başqa dillərlə qohumluğuna aid bir sıra mülahizələr irəli sürülmüşdür. Mənbələrin çoxunda Qafqaz dilləri dörd qrupa bölünür (11, 90):

1. Kartvel (iber) dilləri qrupu.
2. Abxaz-adıgey dilləri qrupu.
3. Nax dilləri qrupu.
4. Dağıstan dilləri qrupu.

Hər bir qrupa aid olan dil öz qədimliyi ilə fərqlənir. Bu dillərin hamısının, hətta çox az işlədilən və yazısı olmayan dillərin də özünəməxsus qrammatik quruluşu vardır. Qafqaz dillərinin əksəriyyəti flektiv quruluşa malikdir. Təbii ki, bu, həmin dillərdə nitq hissələrinin ayrılmasında özünü göstərəcəkdir.

Kartvel (iber) dilləri qrupuna gürcü, svan və zan dilləri aiddir. Nisbətən az ərazidə istifadə edilən zan və svan dilləri yazıya malik deyil. Gürcüstanın dövlət dili olan gürcü dili isə qədim tarixə malikdir. Gürcü dilində olan sözləri qrammatik xüsusiyyətlərinə görə üç yerə ayırırlar: adlar, fellər və köməkçi nitq hissələri (11, 114 ).




Gürcü dilində adlar kəmiyyətə və hala görə dəyişə bilir. Bundan başqa adların içərisində sifətlərin də özünəməxsus xüsusiyyəti vardır (müqayisə dərəcəsi). Fel isə öz spesifik xüsusiyyətləri ilə daha zəngin bir nitq hissəsiddir. Gürcü dilində hər bir nitq hissəsinin ayrılmasında müxtəlif prinsiplər müəyyən rola malikdir. Əgər fel zəngin morfoloji kateqoriyalarına görə fərqlənirsə, zərf haqqında bunu demək mümkün deyil. Bu dildə zərflər leksik-semantik xüsusiyyətlərinə görə ayrılırlar. Demək, gürcü dilində nitq hissələrinin təsnifində ənənəvi üç meyarın özünəməxsus rolu vardır.

Çeçen, inquş və basbi dilləri nax dilləri qrupunu təşkil edir. Çeçen dilindən Çeçenistanda, inquş dilindən İnquşistanda, basbi dilindən isə Gürcüstanın Kaxeti bölgəsində istifadə edilir. 30-cu illərdən bəri tədqiqatçılar bu dil qrupuna akkin dilini də əlavə edirlər. Lakin son illərdə bu adda xalq çeçenlərlə birləşdiyi üçün bu dil də itmişdir.

Nax dilləri morfoloji strukturuna görə aqlütinativ ünsürlər də olan flektiv quruluşa malikdir. Bu dillərdə nitq hissələri sözlərin leksik-qrammatik xüsusiyyətlərə görə qruplaşmasıdır. Çox çətin qrammatik quruluşa malik nax dillərində bu nitq hissələri vardır (11, 186):




Gürcü dilinin təsirinə daha çox məruz qalmış basbi dili digər nax dillərindən öz quruluşuna görə fərqlənir. Bu dildə aşağıdakı nitq hissələri vardır (2, 57):




Basbi dilində isim leksik-semantik və morfoloji xüsusiyyətlərə malik olan söz sinfidir. Sifətlər isə morfoloji kateqoriyaları, semantik xüsusiyyətləri və xüsusi sintaktik funksiyası ilə digər nitq hissələrindən fərqlənir. Nitq hissələrinin xüsusiyyətlərindən belə məlum olur ki, basbi dilində nitq hissələri leksik-semantik, morfoloji və sintaktik prinsiplərə əsasən təsnif edilir.

Abxaz-adıgey dilləri qrupu Qafqaz dillərinin qərb qrupunu təşkil edir. Abxaz və abazin dilləri abxaz yarımqrupunu, adıgey, kabarda-çərkəz və ubıx dilləri isə adıgey yarımqrupunu təşkil edir. Bu iki yarıqrupun dilləri bir-birinə genetik cəhətdən yaxın olsa da, bir qədər fərqli xüsusiyyətləri də vardır.

Abxaz dili Gürcüstan ərazisində yerləşən Abxaz Muxtar Respublikasında yaşayan xalqın dilidir. Bu dildən Türkiyə ərazisində yaşayan abxazlar da istifadə edirlər. Sintetik-flektiv quruluşa malik olan abxaz dilində bu nitq hissələri vardır (2, 34):




Abxaz dilində isim, sifət və zərf kimi nitq hissələrinin sərhədi hələ dəqiq müəyyənləşdirilməmişdir. Bu onların bəzi morfoloji kateqoriyalarının ortaq olması ilə izah olunr. Bu dildə nitq hissələrinin təsnifində leksik-semantik və sintaktik prinsipin rolu daha böyükdür. Çünkü abxaz dilində hələ də bəzi nitq hissələri morfoloji cəhətdən tam formalaşmamışdır.

Abazin dilindən isə Qaraçay-Çərkəz Muxtar vilayətində istifadə edirlər. Bu dilin morfologiyası çətin fel formaları və sadə adlar sistemi ilə xarakterizə olunur. Abazin dilində bu nitq hissələri vardır (9, 43):

Abazin dilində nitq hissələri




Abazin dilində isim və sifət bir-birindən tam fərqləndirilməmişdir. Belə ki, bu iki nitq hissəsi demək olar ki, eyni morfoloji kateqoriyalar üzrə dəyişirlər. Onları cümlədəki funksiyasına görə daha çox fərqləndirirlər. Köməkçi nitq hissələri isə leksik-semantik xüsusiyyətə malik olmasa da, cümlə ilə əlaqədar olurlar. Xüsusi nitq hissələri isə nə əsas, nə də köməkçi nitq hissələrinə bənzəyir. Onlar nominativ funksiyaya malik olmur. Bütün bunları nəzərə alaraq demək olar ki, abazin dilində nitq hissələrinin təsnifində morfoloji prinsiplə yanaşı sintaktik və leksik-semantik prinsiplər də iştirak edir.

Adıgey yarımqrupuna aid olan kabarda-çərkəz dilindən Kabardin-Balkar və Qaraçay-Çərkəz muxtar vilayətlərində yaşayan xalqlar istifadə edirlər. Özünəməxsus fonetik, leksik, morfoloji və sintaktik quruluşa malik olan kabarda-çərkəz dilinin qohum dillərlə həm oxşar, həm də fərqli cəhətləri vardır. Bu dildə sözlər aşağıdakı nitq hissələrinə bölünür (10, 64):

Kabarda-çərkəz dilində nitq hissələri




Göründüyü kimi, bu dildə nitq hissələrinin ayrılması hələ tam başa çatmamışdır (xüsusilə də adların). Adların içərisində nitq hissələrinin sırası əvəzliklə başlayır. Ona görə ki, əvəzlik spesifik xüsusiyyətlərə malikdir və o, asanlıqla digər adlardan fərqlənir. Dilçi alim N. F. Yakovlev kabarda-çərkəz dilində adları belə qruplaşdırır:

a) isim və sifət məzmunlu adlar;
b) qoşma məzmunlu adlar;
c) say məzmunlu adlar ( 10, 65).

Adlar içərisində nisbətən özünəməxsus olanı say məzmunlu sözlərdir. Digər adlarla bağlı xüsusiyyətlər isə hələ də tədqiq olunmaqdadır. Ümumiy-

yətlə, kabarda-çərkəz dilinin morfologiyası cümlədən kənarda sözlərin nitq hissələrinə bölünməsini öyrənir. Bu həmin sözlərin daşıdığı morfoloji kateqoriyalara (hallanma, təsriflənmə, cəmlənmə və s.) əsaslanır.

Dağıstan dilləri Qafqaz dillərinin böyük bir hissəsini təşkil edir. Bu dillər genetik cəhətdə nax dilləri ilə daha yaxındır. Dağıstan dillərinin abxaz-adıgey və kartvel dilləri ilə yaxınlığını göstərən materiallar isə çox azdır. Bu qrupa iyirmidən artıq dil daxildir. Müxtəlif əlamətləri nəzərə alaraq Dağıstan dillərini dörd yarımqrupa bölmək olar:

1. Avar yarımqrupu.
2. Lak-dargin yarımqrupu.
3. Ləzgi-tabasaran yarımqrupu.
4. Şahdağ yarımqrupu ( 5, 50).

Lakin Dağıstan dillərinin qohumluq dərəcəsi, yəni bəzi dillərin hansı yarımqrupa aid edilməsi hələ əsaslı şəkildə araşdırılmamışdır. Bu dillərdən bəziləri ədəbi dil, bəziləri isə dialekt hesab edilir. Işlənmə dairəsi və keçdiyi tarixi yoldan asılı olaraq hər bir dilin özünəməxsus qrammatik quruluşu vardır.

Avar yarımqrupuna avar, andi, karatin və s. dillər daxildir. Bunlardan avar dili ədəbi dildir. Bu dildən əsasən Dağıstan ərazisində məskunlaşan avar xalqı istifadə edir. Avar dili inkişaf etmiş qrammatik quruluşa malikdir. Bu dildə aşağıdakı nitq hissələri vardır ( 6, 147):




Avar dilində nitq hissələri həm leksik, həm də qrammatik xüsusiyyətlərinə görə fərqlənirlər. Bu dildə nitq hissələrini bəzən qrammatik siniflər adlandırılırlar ( 6, 23). Deməli, avar dilində nitq hissələrinin təsnifində qrammatik (morfoloji və sintaktik) meyarlar əsas rol oynayır.

Yazıya malik olmayan karatin dili də avar yarımqrupuna aiddir. Bu dilə avar dilinin təsiri açıq-aşkar hiss olunsa da, karatin dilinin özünəməxsus qrammatik quruluşu vardır. Karatin dilində aşağıdakı nitq hissələri vardır ( 7, 43):




Karatin dilində nitq hissələri, xüsusilə adlar bəzi ümumi xüsusiyyətlərə malikdir. Belə ki, bu dildə adlar üç sinfə ayrılır: birinci sinfə insan-kişi anlayışı, ikinci sinfə insan-qadın anlayışı, üçüncü sinfə isə digər anlayışları bildirən sözlər daxildir (7, 21). Bu qrammatik formaların təzahür formalarına əsasən adlar bir-birindən fərqlənirlər. Demək, karatin dilində adlar arasında sərhəd hələ tam müəyyənləşməmişdir. Nitq hissələrinin formal bölgüsü burada özünü daha qabarıq göstərir.

Dağıstan dillərinin ləzgi-tabasaran yarımqrupuna ləzgi, tabasaran, saxur, aqul, xınalıq və s. dillər aiddir. Bu dillərdən Dağıstan və Azərbaycan ərazisində istifadə olunur. Ədəbi dil olan ləzgi dili digərlərinə nisbətən daha geniş yayılmışdır. Bu dilin bir çox dialektləri var. Onlardan biri də saxur dilidir. Xüsusi qrammatik quruluşa malik saxur dilində aşağıdakı nitq hissələri vardır (3, 187):




Saxur dilində nitq hissələri xüsusi morfoloji xüsusiyyətlərinə görə fərqlənən söz sinifləridir. Burada leksik meyarın da rolu böyükdür.

Bu yarımqrupa daxil olan dillərdən biri də aqul dilidir. Yazıya malik olmayan bu dil genetik cəhətdən tabasaran dilinə yaxın olsa da, onun özünəməxsus qrammatik quruluşu vardır. Bu dildən Dağıstan ərazisinin bəzi bölgələrində istifadə olunur. Aqul dilində aşağıdakı nitq hissəkəri vardır (8, 46):




Aqul dilində siniflərin fərqləndirilməsində morfoloji kateqoriyalar əsas rol oynamır, adların əksəriyyəti cümlədəki roluna görə bir-birindən fərqlənir. Bu dilə çox yaxın olan tabasaran dilində iki sinif – insan və əşya sinfi mövcud idisə, aqul dilində bu münasibətlər daşlaşmış vəziyyətdədir ( 6, 44). Göründüyü kimi bu dildə nitq hissələrinin ayrılması nisbətən şərti xarakter daşıyır.

Şahdağ yarımqrupuna xınalıq, buduq və qrız dilləri aiddir. Bu dillərdən Azərbaycan ərazisində Şahdağ ətrafında yaşayan xalqlar istifadə edirlər. Yazıya malik olmayan xınalıq dilindən Qubanın Xınalıq kəndində istifadə edirlər. Flektiv quruluşa malik xınalıq dilində bu nitq hissələri vardır (1, 21):




Xınalıq dilində nitq hissələrinin bəziləri morfoloji xüsusiyyətlərinə görə fərqlənirlər. Nida isə nə əsas, nə də köməkçi nitq hissələrinə aid xüsusiyyətlərə malikdir. Ona görə də, onu xüsusi nitq hissəsi adlandırırlar.

Qafqaz dillərindən hamısında olmasa da, bəzilərində nitq hissələrinin xüsusiyyətləri ilə tanış olduq. Bu dillərin əksəriyyəti morfoloji quruluşuna görə flektiv dillərə aiddir. Lakin onların bəzilərinə aqlütinativ ünsürlərin də təsiri hiss olunur. Qafqaz dillərinin bəziləri istisna olmaqla çox hissəsində nitq hissələrinin təsnifi prosesi hələ tam başa çatmamışdır və onların bəziləri arasında sərhəd hələ də tam müəyyənləşdirilməmişdir. Bu da Qafqaz dillərinin

az tədqiq olunmasından irəli gəlir. Hər halda natamam da olsa, təsnif zamanı həm morfoloji, həm sintaktik, həm də leksik meyarlardan istifadə olunması nəzərə çarpdı.

## ƏDƏBİYYAT


1. Дешериев Ю.Д. Грамматика хиналугского языка. М.: Академия Наук СССР, 1959, 224 s.
2. Дешериев Ю. Д. Бацбийский язык. М.: Академии Наук СССР, 1959, 384 s.
3. Ибрагимов Г.Х. Цахурский язык. М.: Наука, 2001, 239 s.
4. Грамматика абхазского языка. Сухуми: Алашара, 1968, 204 s.
5. Qurbanov A . Dünyanın dil ailələri. Bakı: APU, 2006, 142 s.
6. Мадиева Г.И. Морфология аварского литературного языка. Махачкала: Дагучпедгиз, 2004, 160 s.
7. Магамедбекова З. М. Каратинский язык. Тбилиси: Мецниереба, 1971, 290 s.
8. Магаметов А.А. Агульский язык. Тбилиси: Мецниереба, 1970, 242 s.
9. Табулова Н.Т. Грамматика абазинского языка. Черкесск: Ставропольское книжное издательство, 2000, 344 s.
10. Яковлев Н.Ф. Грамматика литературного кабардино-черкесского языка. М.: Академия Наук СССР, 1948, 371 s.
11. Языки Азии и Африки (III часть), М.: Главная редакция Восточной литературы, 1979, 386 s.


## ЧАСТИ РЕЧИ И ПРИНЦИПЫ ИХ КЛАССИФИКАЦИИ В КАВКАЗСКИХ ЯЗЫКАХ


**М.М. ГУЛИЕВА**



**РЕЗЮМЕ**

В статье речь идёт о морфологической структуре и частях речи в кавказских языках. В соответствии с их строем традиционная классификация частей речи основывается на трёх принципах (лексико-семантическом, морфологическом и синтаксическом), что отвечает целям классификации.



**Ключевые слова**: язык, части речи, классификация, проблемы классификации частей речи, имена, глагол


## PARTS OF SPEECH IN THE CAUCASIAN LANGUAGES AND THEIR CLASSIFICATION PRINCIPLES


**M.M.GULIYEVA**



**SUMMARY**

The article deals with the morphological structure of Caucasian languages and parts of speech in these languages. According to their structure, it is better to use three traditional principles (lexical-semantic, morphological, syntactic) in the classification of parts of speech.



**Key words:** language, parts of speech, classification, the problems of classification of parts of speech, names, verb